# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Dövlət başçısının tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda əhali ilə görüşləri keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayev oktyabrın 17-də Mingəçevirdəki Heydər Əliyev Mərkəzində Mingəçevir və Yevlax şəhərlərindən, Bərdə, Tərtər, Ağcabədi, Ağdam və Laçın rayonlarından olan sakinləri qəbul edib. Nazir qəbuldan əvvəl Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Nazirlikdən bildirilib ki, qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov oktyabrın 17-də Abşeron rayonunun inzibati mərkəzində - Xırdalan şəhərində 10 şəhər və rayonun sakinləri ilə görüşüb. Arzu Rəhimov Sumqayıt şəhəri, Abşeron, Şuşa, Qubadlı, Xocavənd, Cəbrayıl, Zəngilan, Laçın, Kəlbəcər və Xocalı rayonlarından olan vətəndaşları qəbul edib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Xırdalandakı Heydər Əliyev Mərkəzinin konfrans zalında vətəndaşları qəbul edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin müvafiq şöbə və bölmələrində işə qəbul və ya həqiqi hərbi xidmətlə bağlı olub. Həmçinin hərbi xidmətə gedəcək gənclərin xidmət ərazilərini öncədən öyrənmək, çağırışçının yenidən tibbi müayinəyə cəlb olunması kimi müraciətlər də dinlənilib. Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırmadan sonra cavablandırılacağı bildirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin səlahiyyətlərinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Qəbulu gələn bütün vətəndaşların ərizə, təklif və tövsiyələrinə baxılıb.

***AZƏRTAC***

Azərbaycan.- 2018.- 18 oktyabr.- S.4.